# COP tarixində ciddi dönüş və mühüm nəticələr

*Ötən ilin dekabrında əksər dünya dövlətləri COP29-un Azərbaycanda keçirilməsinin lehinə səs verdilər. Bu, dünya ictimaiyyətinin ölkəmizə olan böyük inamı, o cümlədən "yaşıl enerji" sahəsində həyata keçirilən işlərə verilən yüksək qiymət idi. COP29 iqlim diplomatiyasında Azərbaycanın ən böyük uğurudur. COP29 Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində iqlim dəyişmələrindən əziyyət çəkən kiçik dövlətlər üçün ciddi dönüş, tarixi qərarlarla zəngin bir tədbir kimi yadda qalacaq. Prezidentimizin də vurğuladığı kimi, Azərbaycan böyük və inkişaf etmiş dövlətlərlə kiçik, inkişaf etməkdə olan ölkələr arasında körpü rolu oynayır.*



**Kamilə ƏLİYEVA, BDU-nun kafedra müdiri, professor.**

Müddətin qısa olmasına baxmayaraq, COP29-un yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi tədbirlər görüldü. 80 dövlət və hökumət başçısı, 76 mindən çox iştirakçının COP29-un yüksək səviyyədə təşkil olunması ilə bağlı fikirləri hər birimizdə qürur hissi yaratdı.

Azərbaycana qarşı düşmən siyasəti həyata keçirən Fransa və bir sıra Avropa dövlətlərinin böhtan kampaniyalarına baxmayaraq, iqlim danışıqlarında tarixi nəticələr əldə olundu və uğurla başa çatdı. Ölkəmiz inkişaf etməkdə olan dövlətlərin, xüsusən kiçik ada dövlətlərinin ehtiyaclarını nəzərə alan qərarlar qəbul etməyə çağırış etdi. Məhz bu ölkələr iqlim dəyişmələrindən əziyyət çəkir və ən çox təhlükə ilə üzləşirlər. Azərbaycan həm də müstəmləkə idarəçiliyi səbəbindən ekoloji problemlərlə üzləşən xalqlar və regionlara da həmrəylik nümayiş etdirdi. COP29 BMT çərçivəsində yüksək inteqrasiya edilmiş karbon bazarlarına dair 6-cı maddə üzrə danışıqların yekunlaşdırılması üçün 10 il davam edən gözləntiyə son qoydu. İtki və Zərər Fondunun yaradılması və karbon bazarlarına dair çoxdan gözlənilən 6-cı maddənin işlək vəziyyətə gətirilməsinə nail olundu. Ən əsası COP29 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 300 milyard ABŞ dolları təmin etmək üçün qarşıya məqsəd qoyan Yeni Kollektiv Kəmiyyət Məqsədinin şahidi oldu. Bu razılaşma inkişaf etməkdə olan ölkələrin iqlim dəyişmələri ilə mübarizəsinə kömək edəcək.

Azərbaycanın COP29 Sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1.3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşmasını elan etdi. Bura əvvəlki 100 milyard ABŞ dolları həcmində hədəfi 3 dəfə üstələyən 300 milyard ABŞ dolları həcmində yeni əsas maliyyə hədəfi daxildir. Bu, COP29 Sədrliyinin 48 saatlıq intensiv diplomatik fəaliyyətinin nəticəsidir. COP29-da dünya üçün əhəmiyyətli bəyanatlar qəbul edildi. COP 29-un İqlim Maliyyəsi, İnvestisiya və Ticarət üzrə Bakı Təşəbbüsü yaradıldı. COP Sədrlikləri və Tərəflər bir araya gətirildi. Kiçik və orta sahibkarlığın "yaşıl keçid"i üzrə yeni Bakı İqlim Koalisiyası elan edildi. Bakı COP Sədrliyi enerji üzrə öhdəliklər və bəyanatlar təqdim etdi və 150 tərəf bunu təsdiqlədi.

Ümumilikdə COP29-da müxtəlif sahələri əhatə edən bir sıra koalisiya, tərəfdaşlıq, bəyannamələr qəbul edildi ki, bu da COP-lar tarixində ən ciddi dönüş və tarixi nəticələri özündə əks etdirdi. ■

Respublika.- 2024.- 28 noyabr (№ 262).- S.4.